# MEDİADA XARİCİ DÖVLƏTLƏRLƏ BAĞLI NARRATİVLƏR

MART 2023



# Giriş

*"Mediada xarici dövlətlərlə bağlı narrativlər" reportu "Fakt Yoxla" tərəfindən Azərbaycan mediasında İran, Rusiya, Türkiyə və Qərb dövlətləri haqqında dərc olunan narrativləri özündə ehtiva edir. Reportun bu sayı 2023-cü ilin 1 Mart - 31 Mart tarixlərini əhatə edir.*

***Məqsəd****. Reportun hazırlanmasında məqsəd ölkənin media mühitində qonşu dövlətlər olan İran, Türkiyə və Rusiya və Qərb dövlətləri ilə bağlı hansı narrativlərin (hekayələrin) dərc edildiyini, dövri olaraq bu hekayələrin sayında və ya məzmununda hansı dəyişikliklərin olduğunu, hansı dövlətlərə qarşı qarayaxma kompaniyalarının aparıldığını ölkə vətəndaşlarına göstərməkdir.*

***Metodologiya****. Monitorinq yalnız onlayn resursları əhatə edir. Heç bir televiziya və ya çap mediası monitorinqə daxil edilmir. Siyasətçilərin və qurumların açıqlamaları və ya bəyanatları monitorinqə yalnız o halda daxil edilib ki, onlara verilən başlıqlar yönləndirici olsun. Video formatında olan materiallar monitorinqin əhatə dairəsinə daxil edilməyib. Monitorinq zamanı uyğun media qurumlarının bütün dərc edilən xəbərlər gözdən keçirilib, açar sözlər vasitəsilə axtarışdan istifadə edilməyib. Monitorinqə cəlb edilən media qurumları ölkədə çox oxunma sayına və tərəfliliyinə əsasən seçilmişdir.*
*Mart ayı ərzində monitorinq edilmiş media qurumları aşağıdakılardır:*
***Apa.az, Oxu.az, Musavat.com, Sahar Azeri, Sputnik.az, Demotiya.com, Az.shafaqna.com, İslamtimes.org.***

***Nəticə.*** *Nəticələrə görə bu ay ərzində monitorinq edilmiş media qurumlarında ən çox yer alan xarici dövlət İrandır. İran ilə bağlı ay ərzində 53 narrativ qeydə alınıb. Ümumilikdə monitorinqin nəticəsində 87 narrativ aşkar edilmişdir:*



## İran

Qida ekspertinin fikrincə, öz ölkəsində məktəbli qızları zəhərləyən İran rejiminin Azərbaycana ixrac etdiyi məhsulların keyfiyyətinə diqqət edəcəyi inandırıcı deyil. Link (15 mart 2023)

İranın ikiüzlülüyü: Təbrizdəki Azərbaycanşünaslıq Mərkəzi bağlanıb, Ermənişünaslıq kafedrası açılıb Link (2 mart 2023)
Təkrar paylaşım: Link

İranın riyakarlığı: Həm əfqan qaçqınlara qeyri-insani davranır, həm də "Taliban"la ittifaq qurur Link (4 mart 2023)
Təkrar paylaşım: Link

Molla rejimi kütləvi zəhərlənmələri əhəmiyyətsiz göstərməyə çalışır Link (7 mart 2023)
Təkrar paylaşım: Link

Beynəlxalq aləmdən olan iştirakçılar qarşısında İranın qapısına vurulan qol Azərbaycanın müstəqilliyini həzm edə bilməyən Tehrana qarşı cəbhənin simvolik həmrəyliyi üçün yaxşı platformadır. Link (9 mart 2023)

İŞİD-lik edən İran rejimi, əcnəbi ovuna çıxan Tehran Link (10 mart 2023)
Təkrar paylaşım: Link

Sanki İran İslam Respublikası mümkün olan bütün vasitələrdən istifadə edir ki, biz Şimali azərbaycanlılar İran rejiminə hər gün daha da çox nifrət edək. Cənubi azərbaycanlılar isə hələ ki, gözləmə mövqeyindədirlər. Link (10 mart 2023)

Yalançı, saxtakar Tehran rejimi, ABŞ-yə yaltaqlanan İran XİN başçısı Link (13 mart 2023)

Molla rejiminin qurbanı olan azyaşlı ailəsini dolandırmaq üçün sərhəd bölgəsinə yük daşıyır. Link (14 mart 2023)
Digər mənbələrdə: Link, Link

Vətən Müharibəsindən sonra bir çox İran rəsmiləri Bakıya səfərlərində torpaqlarının otuz illik erməni işğalından azad edilməsi münasibətilə Azərbaycana təbriklərini çatdırdılar, sanki bu hadisədən məmnun olduqlarını göstərdilər.Lakin tezliklə bunun belə olmadığı üzə çıxdı. Link (17 mart 2023)

İran qoşunları Azərbaycanla sərhəddə hazır vəziyyətə gətirildi Türkiyənin internet resursları xəbər verir ki, diplomatik mənbələrin dəyərləndirməsinə əsasən, hazırki

mesajlar Azərbaycana yönəlib.Link (18 mart 2023)

Nizamini farslaşdırmağa çalışan çarəsiz İrandan daha bir təxribat Link (21 mart 2023)
Təkrar paylaşım: Link

Ancaq İran öz şakərindən əl çəkməyərək əmmamə altında gizlənən məkrləri daha da böyüdür və hədəfə Azərbaycanı da qoyur. Link (23 mart 2023)

İranın ətrafındakı həlqə daralır. Molla rejimi uzun müddət manevrlər edib, vədlər verib sanksiyalardan, çöküşünə aparan proseslərə start verilməsindən yayına bilsə də, son davranışları ilə bütün ümidləri puça çıxarıb. Tehran hamını təhdid etməyə başlamışdı və nüvə silahı əldə etmək planını da son vaxtlar açıq bəyan edirdi. Artıq İrana verilən möhləti bitmiş hesab etmək olar. Çünki molla rejimi ilə artıq başqa dildə danışılacağına dair açıq fikirlər səslənir. Link (2 mart 2023)

Xatırladaq ki, 2021-ci ilin oktyabrında İranın dini rəhbəri Əli Xameneinin Azərbaycandakı nümayəndəsi, Bakıdakı İran Mədəniyyət Mərkəzinin rəhbəri Əliəkbər Ocaqnejadın Bakıda fəaliyyət göstərən ofisi və "Hüseyniyyə" məscidinin fəaliyyəti dayandırılıb. Ondan sonra Azərbaycan dövlətinin əleyhinə, İranın isə xeyrinə casusluq edən bir çox şəxslərin silsilə həbsləri həyata keçirilib. Bu həbslər vaxtaşırı davam edir. Link (4 mart 2023)

Molla rejimi İranda insan haqlarını pozmaqda, sui-qəsdlər törətməkdə davam edir. Link (6 mart 2023)

Yeni təxribata hazır olmalıyıq, İran ciddi iş aparır - ŞOK XƏBƏRDARLIQ Link (7 mart 2023)

Tehran rejimi nüfuzlu ilahiyyatçının ölümündən istifadə edərək inanclı kəsimi ələ keçirmək istiqamətində aktivləşib Link (8 Mart 2023)

Azərbaycanın 44 günlük Vətən müharibəsində böyük Zəfərini həzm edə bilməyən İran heç cür sakitləşmək bilmir. Qələbədən ötən müddət ərzində hər gün demək olar ki, İranın təxribatları ilə üzləşirik. Ermənistanla münasibətləri hər addımda dərinləşdirən Tehran rejimi Azərbaycana qarşı təhdidlərini, hədələrini son vaxtlar daha da artırıb. Bu təhdidlərin son günlər açıq müstəviyə keçməsi isə İranın məqsədlərinin nə qədər çirkin olduğunu bir daha göstərir. Link (22 mart 2023)

Qeyd edək ki, son günlər İranda müxtəlif şəhərlərdə və məktəblərdə yüzlərlə qız şagird zəhərlənib. Bir çoxları bunu rejimin qəsdən etdiyinə inanır. Link (7 mart 2023)

Belə məlum olur ki, 10 noyabr 2020-ci il bəyanatından dərhal sonra İran hərəkətə

keçmiş və həm Ermənistanı, həm də Qarabağdakı separatçıları silahlandırmağa, onlara ən müasir PUA və raketlərini verməyə başlamışdı – həm də pulsuz! Link (6 mart 2023)

Qeyd edək ki, Nizami Gəncəvinin yalnız farsca əsərlərinin dövrümüzə gəlib çatmasından istifadə edən İran illərdir onu fars əsilli şair etmək üçün dəridən-qabıqdan çıxır. Link (6 mart 2023)

Nardaran hadisələrindən sonra dövlət İranın Azərbaycandakı dini təsirinə qarşı mübarizəni aktiv mərhələyə keçirdi. Bu prosesdə "təsir agentləri"nin neytrallaşdırılması ilə yanaşı, milli dini liderin hazırlanması da əhəmiyyətli idi, çünki ölkə əhalisinin yarısından çoxunun inancı olan şiəliyi dəyişmək yox, bunu "Xomeyniçilikdən" ayırmaq, Əhli-beyt eşqinin Azərbaycan insanı üzərində İranın siyasətinə alət olmasının qarşısını almaq lazımdır. Hacı Şahin Həsənli təkcə millət yox, dövlət tərəfindən də bu obrazda qəbul olunurdu. İran, şübhəsiz ki, Hacı Şahinin ölümündən istifadə edərək, onun nüfuz etdiyi inanclı kəsimi yenidən ələ keçirmək istiqamətində aktivləşəcək. Bu baxımdan, Hacı Şahinin nüfuz etdiyi kəsimə bundan sonra kimin xitab edəcəyi əhəmiyyətlidir. Link (2 mart 2023)

Qeyd edək ki, Abdullahianın İran PUA-larının Rusiyaya verilməsi reallığını bu qədər gizlətməyə çalışması Qərb ölkələrinin kəskin reaksiyasına səbəb olur. Link (2 mart)

Rəsmi Tehran isə nəinki sifarişçiləri cəzalandırmır, terrorçuya da "dəli" adı qoyub məsuliyyətdən yayındırır. Bunun fonunda "üçtərəfli görüş"dən bəhs etmələri o deməkdir ki, Tehran Bakının tələblərini nəzərə almaq niyyətində deyil. Link (9 mart 2023)
Təkrar paylaşım: Link

İran dünyanı zəhərləyən 10 ölkədən biridir Link (9 mart 2023)
Digər mənbələrdə: Link, Link

Tehran azərbaycanlıların ovuna çıxıb: İrana getməyin! Link (10 mart 2023)
Təkrar paylaşım: Link

İran xarici vətəndaşları girov götürür Link (10 mart 2023)

İranın Bakıya qarşı "qisas" əməliyyatı: kimlər iştirak edir? Link (11 mart 2023)

Görüntülərdən Tehrandakı səfirliyimizə hücum edən terrorçunun İran polisi ilə birlikdə sərbəst gəzməsi, polislərin yanında hədələrinə davam etməsi, öz cinayət alətlərini hadisə yerindən aparması və polisin buna müdaxilə etməməsi aydın olur.

Bu, İran dövlətinin bu hücumda birbaşa iştirakını təsdiqləməkdədir. Link (11 mart 2023)

44 günlük müharibə zamanı Azərbaycan ərazisinə soxularaq, Azərbaycan Ordusunun hərəkətini bir sutka ləngitməklə ermənilərin toparlanmasına imkan tanıyan İran; 30 ildən sonra sərhədimizdə irimiqyaslı təlim keçirən İran; Zəngəzurdə tez-tələsik konsulluq açıb, 10 noyabr 2020-ci il bəyanatının icrasına imkan verməyən İran... Saymaqla bitməyən təxribatlarının davamı olaraq 27 yanvar 2023-cü ildə Tehrandakı səfirliyimizə terror hücumu təşkil etdirən də İran... Link (11 mart 2023)

İranın Azərbaycan sərhədində döyüş təyyarəsi ilə törətdiyi təxribatın məqsədi, bəllidir ki, Bakını hədələməkdir və davamlı olacağı istisna deyil. Link (12 mart 2023)

İran təyyarəsinin sərhədimizə yaxın uçuş həyata keçirməsinin məntiqi budur ki, Tehran Azərbaycanı, Türkiyəni və Azərbaycan-İsrail strateji tərəfdaşlığını test edir. Tehran ilk növbədə Azərbaycanın və Türkiyənin təxribata reaksiya gücünü müəyyən etmək istəyir. Link (12 mart 2023)

Azərbaycanda İran casus şəbəkələrinin ifşa olunması ilə bağlı əməliyyatlar davam edir. Link (12 mart 2023)
Təkrar paylaşım: Link

Farsların Nizami ilə bağlı həyasız yalanı Link (13 mart 2023)

Azərbaycanda İran casus şəbəkəsinin neytrallaşdırılması addımlarına Tehran da qarşılıq verməyə çalışacaq. Belə vəziyyətdə Azərbaycan vətəndaşlarının İrana getməsi daha da təhlükəli hala çevrilir, çünki mollalar indi "Azərbaycan casusu" tapmaq üçün hər şeyə əl atırlar. Link (13 mart 2023)
Təkrar paylaşım: Link

İran şagirdləri zəhərləməyə davam edir Link (14 mart 2023)

SEPAH-ın Azərbaycanla bağlı "dövlət planı" - Detallar Link (16 mart 2023)

Faktlar var: Tehran Bakıya qarşı müharibəyə hazırlaşır Link (16 mart 2023)

Ermənistan tərəfi İranın sifarişi ilə eyniməzmunlu bəyannamənin ATƏT-də qəbul edilməsinə mane olub.Təəssüf ki, 2 aya yaxın müddətdə davam edən müzakirələrə Ermənistan tərəfi hər vəchlə maneə törədib və Səfirliyə xain hücumu pisləyən, terror qurbanlarının ailələrinə başsağlığı diləklərinin çatdırıldığı və ədalətin təmin olunması məqsədilə hərtərəfli istintaq aparılmasının vacibliyinin vurğulandığı bəyannamənin qəbuluna imkan verməyib. Link (18 mart 2023)

İran sanki Ermənistanın "ərazi bütövlüyünü" qorumaq üçün bütün məsuliyyəti öz üzərinə götürüb. Kimsə İrandan soruşmur ki, Ermənistanın ərazi bütövlüyünə haradan təhdid yaranır, niyə İran özünə əl qatıb, hansı səbəbdən hər gün Azərbaycanı hədələyir? Link (19 mart 2023)
Digər mənbələrdə: Link

Son zamanlar Ermənistanın sözçüsü kimi çıxış edən SEPAH yenə də Bakını təhdid etmək məqsədilə fantaziya dolu film çəkib. Link (21 mart 2023)
Təkrar paylaşım: Link

İran İslam İnqilabi Keşikçiləri Korpusuna bağlı olan Teleqram kanalları Prezident İlham Əliyevin Talış kəndinə səfəri və orada Ermənistana mesajlarından həyəcanlanaraq, əl-ayağa düşüblər. Bu əl-ayağa düşmə ermənilərin daha sakit davranması fonunda xüsusilə diqqət çəkir. Sanki İlham Əliyev Azərbaycana qarşı işğalçı siyasətini davam etdirən Ermənistana deyil, İrana xəbərdarlıq göndərib. Link (21 mart 2023)

İran hərəkətə keçdi: Azərbaycan hədəf göstərilir Link (22 mart 2023)

İranda molla rejiminin insanlara divanı davam edir. Link (22 mart 2023)
Digər mənbələrdə: Link, Link

İrəvan və Tehran arasında Bakı əleyhinə görüş keçirildi Link (22 mart 2023)

İran Azərbaycanla sərhəddə məkrli plan hazırlayır Link (24 mart 2023)

Son günlər daha çox video-blogerliklə məşğul olan SEPAH təbliğatçılarının bu dəfə Azərbaycana qarşı hazırladıqları çarx əslində özlərini ifşa edib. Link (24 mart 2023)
Təkrar paylaşım: Link

Ordumuz irəlilədi: İrandan təxribata hazır olmalıyıq! Link (26 mart 2023)
Digər mənbələrdə: Link

İran ordusunun Azərbaycanla sərhəddə aktivliyi – istər təlimlər, istərsə də "qəfil hərbi yoxlamalar" formasında – bir məqsədə xidmət edir: Bakıya təsir etmək. Link (26 mart 2023)
Digər mənbələrdə: Link

İran İsraillə barışmağa çalışır: bəs, Bakını niyə təhdid edir? Link (26 mart 2023)
Digər mənbələrdə: Link

SEPAH-a yaxınlığı ilə seçilən kanallar yenidən Azərbaycan əleyhinə təhdid və təhqir

xarakterli paylaşım edib. Link (27 mart 2023)

Son vaxtlar İran hakimiyyəti Azərbaycan Respublikasına qarşı düşməncə davranışlar sərgiləyir. Link (28 mart 2023)
Təkrar paylaşım: Link

Azərbaycanın 44 günlük Vətən müharibəsində böyük Zəfərini həzm edə bilməyən İran heç cür sakitləşmək bilmir. Link (23 mart 2023)

## Rusiya

Rusiya görünməmiş sanksiyaların öhdəsindən gəlməyi bacarıb. Link (3 mart 2023)

Ukraynadakı münaqişənin NATO-ya görə baş verməsi Rusiyanı xarici liderlərin gözündə populyar edir. Link (3 mart 2023)

Amerikalılar Putinin simasında öz ölkəsinə və xalqlına Amerika hakimiyyətinin öz ölkə və xalqına göstərdiyi qayğıdan daha çox diqqət və qayğı göstərən bir insan və lider görməyə başlayıblar. Link (9 mart 2023)

Aİ anti-Rusiya sanksiyaları tətbiq etmək imkanlarını tükədib. Sanksiyalara baxmayaraq Rusiya iqtisadiyyatı inkişaf edəcək Link (12 mart 2023)

Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti xidmət aparan Rusiya sülhməramlıları növbəti dəfə absurd fikirlərin, ifadələrin yer aldığı "informasiya bülleteni" dərc ediblər. Link (6 mart 2023)
Təkrar paylaşım: Link

Ermənilər Qarabağa silahlı dəstə daşıyırlar. Müdafiə Nazirliyi Rusiya sülhməramlı kontingentinə xəbərdarlıq edib. Link (11 mart 2023)

Ermənilərin Qarabağa silah daşımaları davam edir. Rusiya sülhməramlıları yenə də qanunsuzluğa göz yumurlar. Link (13 mart 2023)

Rusiya sülhməramlıları öz ampluasında: Separatçılar himayə edilir Link (13 mart 2023)

Terrorçuların və separatçıların himayədarı: Rusiya "sülhməramlı"ları evlərinin yolunu yaxın edirlər Link (24 mart 2023)

Sərhəddə növbəti təxribat- Ermənistanın niyyəti, Rusiyanın susqunluğu Link (9 mart 2023)

Azərbaycan-Ermənistan danışıqları artıq Moskvasız davam edəcək, amma Bakı-Xankəndi dialoqu Kremlin inhisarındadır; mütəxəssislərin fikrincə, ruslar ermənilərlə təmaslara maneçilik törətsə, onların çıxarılması proseduruna başlanılmalıdır Link (8 mart 2023)

Qarabağda 5 mart tarixində yaşanan silahlı erməni təxribatı bir qənaəti faktiki daşlaşdırmış oldu: ərazimizdə müvəqqəti yerləşmiş Rusiya "sülhməramlı" kontingenti qanunsuz silahlı dəstələri nə zərərsizləşdirmək, nə də onları Qarabağdan çıxarmaq niyyəti var. Daha betəri: nəinki bunu etmirlər, üstəlik, separatçı-kriminal dəstələrə ərazimizdə möhkəmlənmək üçün hər cür texniki və başqa dəstəyi verir, onları legitimləşdiməyə çalışırlar. Link (8 mart 2023)
Yenidən paylaşım: Link

Bir-bir ilə müharibə vəziyyətində olan Qərb və Rusiya Azərbaycan-Ermənistan problemində rollarını bölüşdürüblər və öz imkanlarına uyğun sərhədlər müəyyənləşdiriblər: Azərbaycan-Ermənistan sülhü, Bakı-Xankəndi dialoqu: təhlillər göstərir ki, Moskvanin müqavimətinə baxmayaraq, Azərbaycan-Ermənistan danışıqları artıq Rusiyasız davam edəcək, ancaq Qərbin vasitəçiliyi ilə aparılacaq. Link (7 mart 2023)

Son zamanlar Ermənistan dövləti və cəmiyyətinin əksər hissəsinin açıq anti-Rusiya ritorikasına, hətta Moskvaya ünvanlanan təhqir və təhdidlərinə rəğmən, rus mətbuatı öz anti-Azərbaycan və açıq ermənipərəst mövqeyindən əl çəkmir. Link (6 mart 2023)
Təkrar paylaşım: Link

Güman ki, dövlətimizin müvafiq qurumları da həmin yola müvəqqəti nəzarət edən Rusiya hərbi kontingentinə müraciətlər ünvanlayıblar, amma son hadisə sübut etdi ki, 10 noyabr 2020-ci il öhdəliklərinə əməl etməyən təkcə Ermənistan deyil, həm də Rusiyadır! Bəli, töküllən qanlar həm də Rusiya hərbi kontingentinin öz missiyasını icra etməməsinin məntiqi nəticəsidir! Belə olan təqdirdə rus hərbçilər Qarabağda niyə qalmalıdır?! Link (5 mart 2023)

Azərbaycan və Ermənistan Rusiya ilə müharibə etmədikləri halda, Kremlin bu iki ölkə arasında imzalanacaq sülh sazişinə öz mövqeyini yerləşdirməyə çalışması hərbi-siyasi məntiqdən çox-çox uzaqdır... Link (23 mart 2023)
Təkrar paylaşım: Link

Şimal və cənub qonşularımızın - Rusiya və İranın sanki sözləşiblərmiş kimi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı demarşları səngimir. Hətta son

günlər daha da artıb. Link (14 mart 2023)

Azərbaycan və erməni xalqlarının barışığında, ümumən bölgədə uzunmüddətli sülhdə ən çox Rusiyanın maraqlı olmadığına dair dəlil-sübutlar sürətlə artmaqdadır. Elə təkcə Qarabağda müvəqqəti yerləşdirilmiş "sülhməramlı" kontingentin separatçılarla getdikcə güclənən təhlükəli iş birliyini qeyd eləmək yetər. Link (26 mart 2023)

Baş verə biləcək qarşıdurmanın məsuliyyəti Ermənistanın və Rusiya sülhməramlılarının üzərinə düşür Link (25 mart 2023)

Rusiya Federasiyasının dağılması bu və ya digər dərəcədə qaçılmazdır. Link (2 mart 2023)

Bakı Rusiyaya ultimatum verib: məhv ediləcək! Link (3 mart 2023)
Digər mənbələrdə: Link

Lavrov Bakıda olarkən nəzarət-keçid məntəqəsinin qurulmasına imkan verməyəcəklərinə işarə vurdu. Rusiya bu məsələdə 10 noyabr bəyanatını əsas götürür, lakin eyni bəyanatda erməni silahlı dəstələrinin çıxarılması öhdəliyinə də əməl etmir. Belə görünür ki, 10 noyabr razılaşması yalnız bizim üçün keçərlidir. Link (5 mart 2023)
Digər mənbələrdə: Link

Bəllidir ki, nə Rusiya, nə Ermənistan, nə də separatçılar bu tələblərə əməl edəcək. Bu baxımdan, Azərbaycan Ordusunun hərəkətə keçəcəyi gözləntisi ön plandadır, bu açıqlama da mümkün addımlardan öncəki xəbərdarlığa daha çox bənzəyir. Link (7 mart 2023)
Təkrar paylaşım: Link

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Link (7 mart 2023)

**Qərb**

ABŞ ziddiyyətlərlə oynamalı, parçala və hökmranlıq etməli idi - və İran əsas yaramaz roluna təyin olundu. Hamını ona qarşı toplamaq naminə Amerika hətta ərəb-İsrail yaxınlaşmasına nail olmağa çalışdı – bu səbəbdən "İbrahimi razılaşmalar" və Fələstin nizamlanması üçün Kuşner planı ortaya çıxdı. Link (12 mart 2023)

Qərbin Rusiya Federasiyasına qarşı sanksiyaların uğursuzluğunu etiraf etməyə cəsarəti çatışmır. Link (17 mart 2023)

ABŞ dünyanı yenidən bölüşdürməyə başlayıb: İlk qurban kim olacaq Link (17 mart 2023)

Qərb ölkələri resurslara çıxış naminə münaqişəyə başlayacaqlar Link (18 mart 2023)

ABŞ Rusiya qətnaməsinin əleyhinə səs verməyə məcbur edəcəyi ölkələr qrupunu yaradır. Link (23 mart 2023)

Rusiya Aİ-nin Afrika ölkələrinə qarşı ikiüzlülüyünü ifşa etdi Link (28 mart 2023)

Lazım gələrsə İran ərazisinə qabaqlayıcı hərbi zərbə endirəcəyini daim bəyan edən ABŞ-İsrail tandemi vəziyyəti daha da gərginləşdirir. Tehran bütün bu illər ərzində İsraili "şər" adlandırmaqdan əl çəkməyib. Link (13 mart 2023)

Avropa Parlamenti İran xalqına qarşı nifrətyayma məkanına çevrilib Link (18 mart 2023)

AB Qarabağa girməyə çalışır - Məkrli plan Link (7 mart 2023)

ABŞ müharibənin bitməsini istəmir
Link (19 mart 2023)

BAKI 2023